# Operativ Qərargah ölkə ərazisində koronavirusla əlaqədar tətbiq olunacaq bəzi sosial izolyasiya tədbirləri barədə məlumat yayıb

Koronavirus infeksiyası (COVID-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha da ciddi tədbirlər görməyə sövq edir. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq və virusun qarşısının alınması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərindən irəli gələrək ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb. Bununla əlaqədar bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınıb. Həmçinin dövlət və özəl sektora aid qurumlardan, vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmələri tələb olunur.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah 14 mart 2020-ci il saat 00:00-dan etibarən ölkə ərazisində tətbiq olunacaq bəzi sosial izolyasiya tədbirlərini diqqətə çatdırır:

- *ölkə üzrə bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirləri təxirə salınır, artıq təyin olunmuş tədbirlərin tarixi dəyişdirilir;*
- *ölkə üzrə kinoteatrların, muzey və teatrların, əyləncə mərkəzlərinin, idman zallarının fəaliyyəti dayandırılır;*
- *ölkə ərazisində bütün toy məclislərinin keçirilməsi qadağan edilir; (14 və 15 mart 2020-ci il tarixlərinə əvvəlcədən təyin olunan toy mərasimləri istisna olmaqla)*
- *dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi qadağan olunur;*
- *restoran və kafelərdə iş rejimi saat 21:00-dək müəyyən edilir və müvafiq dövlət strukturları tərəfindən bu məkanlar üçün açıqlanacaq qaydalara riayət olunması mütləqdir;*
- *restoran və kafelərdə kütləvi şənliklərin, məclislərin təşkili qadağan edilir;*
- *saat 21:00-dan sonra fəaliyyət göstərən klublar və barların fəaliyyəti dayandırılır;*
- *ölkə üzrə fəaliyyət göstərən alış-veriş mərkəzlərinin fəaliyyətinin müvafiq dövlət strukturları tərəfindən açıqlanacaq qaydalara riayət olunaraq həyata keçirilməsi mütləqdir;*
- *aptek, ərzaq mağazaları, market və supermarketlərin iş rejimində dəyişiklik olmayacaqdır;*
- *ictimai nəqliyyatın fəaliyyəti müvafiq dövlət strukturları tərəfindən açıqlanacaq qaydalara uyğun həyata keçiriləcəkdir;*
- *tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarəti qadağan edilir;*
- *dövlət strukturlarında çalışan bütün şəxslərin və səhiyyə işçilərinin ölkədən kənara səfərləri Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın icazəsi əsasında həyata keçirilə bilər;*
- *dövlət və özəl sektorda çalışan şəxslərin ən vacib məqamlar istisna olmaqla ezamiyyə səfərlərinə məhdudiyyət tətbiq edilməlidir;*
- *özəl tibb müəssisələri Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi ilə (TƏBİB) koordinasiya şəraitində çalışmalı, yarana biləcək hər hansı hallar üçün yüksək hazırlıq səviyyəsi təmin edilməlidir;*
- *qeyd olunan müddətdə dövlət strukturlarının, özəl qurumların, bank və iaşə obyektlərinin və digər qurumların fəaliyyəti, vətəndaş müraciətlərinə baxılması, vətəndaşların qəbulu, daxili görüş və iclasların təşkili üçün xüsusi qaydalar işlənib hazırlanmalıdır;*

Koronavirus diaqnozu ilə xüsusi rejimli xəstəxanalarda müalicə alan və karantin qaydalarını pozan şəxslər barəsində cəza tədbirləri tətbiq olunacaqdır.

Eyni zamanda, ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlər görüləcəkdir.

Vətəndaşlarımızdan və kütləvi informasiya vasitələrindən bütün dünyada yaranmış hazırkı vəziyyətdə maksimum məsuliyyətli olmaq və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərmələri tələb olunur.

Belə ki, hazırda koronavirus zəminində yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşlarımızın, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımları, görülən işlərə dəstəyi vacibdir.

**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarları qeyd-şərtsiz icra olunmalıdır.**

## Ədibin ev muzeyində görüş

Xalq şairi Bəxtiyar Vahabzadənin Şəki şəhərindəki ev-muzeyində bölgə yazarlarının görüşü təşkil olunub.

Tədbirdə Qəbələ yazarlarının da bir qrupu iştirak edib. Onlar öz yaradıcılıqlarından yeni şeir nümunələrini səsləndiriblər.

Qəbələli yazarlar muzeyə və tədbir iştirakçılarına müəllifi olduqları kitabları hədiyyə ediblər.

**"Qəbələ"**

## Yeni körpüdə inşaat işləri sürətlə davam edir

Bum çayı üzərindəki körpüdə inşaat işləri sürətlə davam edir. On iki aşırımlı körpünün uzunluğu 310 metr, eni isə 9 metr olacaq. Layihə çərçivəsində vətəndaşların rahat və təhlükəsiz hərəkətinin təşkili üçün körpü üzərində hər bir istiqamət üzrə piyada səkilərinin salınması da nəzərdə tutulur.



Hazırda körpünün 13 dayağından 10-da tikinti işləri aparılır. On bir yaşayış məntəqəsinin əhalisi rayon mərkəzinə və ətraf yaşayış məntəqələrinə getmək üçün çayı keçməkdə çətinlik çəkir, təqribən 30 kilometr əlavə məsafə qət etməli olurdular. Yeni körpünün inşası isə 20 min nəfər əhalinin rahat gediş-gəlişinə xidmət göstərəcək, rayonumuzda turizmin inkişafına və əhalinin həyat şəraitinin daha da yaxşılaşmasına töhfə verəcəkdir.

**"Qəbələ"**

## Könüllülər böyük həvəslə qoşulublar

"Könüllülər ili" çərçivəsində bir sıra rayonlarda başlanan "Könüllü qonaq" təşəbbüsünə rayonumuzun gəncləri də böyük həvəslə qoşulublar. Qəbələ Gənclərin İnkişaf və Karyera Mərkəzinin könüllüləri rayonun Həmzəli kəndində Cabbarovlar ailəsinə qonaq gediblər. Onlar ev sahibəsinə təmizlik işlərinin aparılmasına kömək edib, həyətdə səliqə-sahman yaradıblar.

Mərkəz tərəfindən növbəti günlərdə "Növbədə könüllüdür", "Sərhədsiz gənclik" və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub.

**"Qəbələ"**

*31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür*

## Yaddaşlara əbədi həkk olunan qətliam

***XIX əsrin əvvəllərində Çar Rusiyasının işğalçılıq siyasətinin davamı kimi İrandan, Osmanlı Türkiyəsindən və digər yaxın şərq ölkələrindən yüzminlərlə erməni ailəsi Şimali Azərbaycana köçürülmüşdür. Həmin vaxtlardan başlayaraq qanı nankorluqla yoğrulmuş ermənilər azərbaycanlılara qarşı gizli və ya açıq şəkildə genosid, soyqırımı siyasəti aparmağa başlamışlar.***

***Belə qanlı soyqırımlarından biri də 1918-ci ilin mart ayında törədilmişdir.***

1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında bolşevik maskasına bürünmüş qatı erməni millətcisi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlanmışdır. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.




Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin təhqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmış, dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaranmışdır. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan verməmişdir.

31 mart azərbaycanlıların soyqırımı öz həqiqi hüquqi-siyasi qiymətini düz 80 il sonra 1998-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə almışdır. Həmin ildən başlayaraq hər il 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Bu günün qeyd edilməsi Azərbaycan xalqı və dövlətçiliynin tarixində baş vermiş faciəli hadisələrə milli yaddaşın təzahürüdür.

**Qüdrət SƏMƏDOV,**
**"Qəbələ"**